

## ÜLVÜ ÜMİD

*Ülvi Ümid (Ülvi Ələkbərzadə) 1998-ci ildə Bakı şəhərində anadan olub. 2012-ci ildən yaradıcılığa başlayıb, şeirləri və məqalələri dövrü mətbuatda çap olunur.*

*"Zülmətdən doğan işıq", " Duyğular və Düşüncələr", "Sonbahar nəğməsi" adlı kitabların müəllifidir.*

### DƏNİZ

Yenə də gəlmişəm qoynuna sənin,
Məni ağuşuna alsana, dəniz.
Dərdli günlərimin həmdəmi olub,
Mənə anam qədər yansana dəniz.

Ürək üsyan edər, həsrət oduyla,
Alovlu qəlbimə məlhəmsən, dəniz.
Niyə, dalğaların coşubdur bu gün?
Dalğalar qoynuna, qoy dönsün, dəniz.

Gəldim ki, səninlə sirdaş olaq biz,
Dərdimiz də birdir, sevincimiz bir.
Günəşi sevgiylə qucaqlanq biz,
Mənim dərdlərimi alsana, dəniz

### EŞQİN ZİRVƏSİ

Arzular ürəkdə qaldı yarımçıq,
Həyatdan yoruldu duyğulu ürək.
Bu dünya əzəldən belə yarandı,
İnsan sevgi ilə yaşasın gərək.

Bu yolda əyilməz, bu yoldan dönməz,
Qəlbinə sevgini həkk edən hər kəs.
Bir ömür sığındıq isti qucağa,
Bizə arxa oldu, eşqinə nəfəs.

Eşqdən qiymətli duyğu bilmədik,
Eşqin zirvəsinə ucalanda biz.
Bu yolda bizimlə birgə olmasın,
Sevgisi olmayan, qəlbi şaxta, buz.

### SƏNİ

Vurdun ürəyimə bir payız yeli,
Pay verdin ömürlük qüssəni, qəmi.
Ay bu ürəyimin həmdəmi, təni,
Biləsən unudan deyiləm səni.

Canımı yandırıb, etsən də yara,
Gözümdə dünyanı etsən də qara.
Qəlbimi sındırıb, etsən də para,
Biləsən unudan deyiləm səni.

### SƏNSİZLİYİM

Həsrətini çəkə-çəkə,
Düşüb qəlbim intizara.
Qəlbin imiş evim mənim,
Söylə, gedim indi hara?

Üzümdə bir gülüş görsən,
Sanma yoxdur, dərdim, ahım.
Üzümdəki gülüşləri,
Yuyur mənim göz yaşlarım.

O xəyallar, xatirələr,
Elə bil ki, düşmən mənə.
Ətrafımda dostum, yadım,
Mən gülürəm, aldanırlar,
Gülüşümlə yanılırlar.

Bu qəlbimin var parası,
Həsrətindən ölüm gərək,
Axı, qəlbin var yarası,
Qəlb yaralı, gülüm gərək!

Heç keçməyir gecə zaman,
Hicran olub, qəlbdə taxtım.
Yandı qəlbim, yandı yaman,
Belə verib, könül baxtım.

### SƏSSİZ GECƏLƏR

Səssiz axan gecələr,
Ulduzlarla danışır.
Ulduzların arzusu,
Sabahlara qarışır.

Arzularla doludur,
Hər açılan sabahlar.
Çiçəkləyən ümiddir,
Hər açılan sabahlar.

Bəzən aylı gecələr,
Sükutlara qarışır.
Üfüqlərə yetməyə,
O günəşlə yarışır.



33